(1) Baş Prokuror i Birləşmiş Ştatların müvafiq şöbələrlə və agentliklərlə məsləhətləşdikdən eyni zamanda bütün maraqlı şəxslərin fikirlərini rəsmi məlumat və rəy prosedurları vasitəsilə əldə etdikdən sonra bu bölmənin əvvəlki şərtləri ilə bağlı Ədliyyə Nazirliyinin düzgün tətbiq edilə bilən hazırkı siyasətinə uyğun olması üçün daxili problemlərin xüsusi sorğularına cavablar vermək üçün qayda müəyyən edəcək. Baş Prokuror belə tələbi qəbul etdikdən sonra 30 gün ərzində həmin tələbə cavab rəyi verəcək. Ədliyyə Nazirliyinin düzgün tətbiq edilən hazırkı siyasətinin məqsədləri üçün gələcək idarəetmədən asılı olaraq, bu bölmənin əvvəlki şərtlərini ləğv edəcək. Rəylər üçün əlavə tələblər əvvəlki tələblərdə göstərilən idarəetmə sahəsindən uzaqda olan digər müvafiq gələcək idarəetmədən asılı olmayaraq Baş Prokuror tərəfindən qeydiyyata alına bilər. Bu maddənin müvafiq şərtləri əsasında edilən hər hansı hərəkət zamanı daxili problemlər tələbində göstərilən və Ədliyyə Nazirinin həmin siyasət əsasında bildirdiyi rəy üzrə təkzib edilə bilən ehtimal olacaq. Belə ehtimal sübutun üstünlüyü ilə təkzib edilə bilər. Bu maddənin məqsədlərinin ehtimalını nəzərə almaqla, məhkəmə bütün müvafiq amilləri, eyni zamanda lakin Ədliyyə Nazirinə təqdim edilmiş məlumatın dəqiq və tam olduğunu və onun Ədliyyə Naziri tərəfindən qəbul edilmiş hər hansı tələbdə göstərilən idarəetmə həcmindəki proseslərlə məhdudlaşmamaqla nəzərdən keçirəcək. 5-ci maddənin 5-ci fəslinin II subfəslinə əsasən Ədliyyə Naziri həmin maddə ilə tələb olunan proseduru müəyyən edəcək və həmin prosedur göstərilən maddənin 7-ci fəslinin şərtlərinə əsasən yerinə yetiriləcək.

(2)1-ci paraqrafın prosedurlarına əsasən yerli orqanın müraciəti ilə əlaqədar Baş Prokuroriyində və ya Birləşmiş Ştatların hər hansı nazirliyi və ya orqanında tərtib olunan, əldə olunan və ya hazırlanan hər hansı sənəd və ya digər materialın məzmunu 5-ci başlığın 552-ci bölməsinə görə açıqlanmır. Bundan başqa yerli orqanların razılığı istisna olmaqla ədliyyə nazirinin nümayəndəsinin yerli orqan və ya digər orqanlar vasitəsilə icazə verib-verməməsindən asılı olmayaraq həmin sənəd və ya materialın məzmununun ictimai şəkildə açıqlanmasına icazə verilmir.

(3) 1-ci paraqrafa müvafiq olaraq Baş Prokurorinin nümayəndəsi tərəfindən irəli sürülən hər hansı yerli sakinlə əlaqədar Baş Prokurorininnümayəndəsinin irəli sürülmüş məsələ ilə bağlı rəy bildirməsi ilə imtina edilə bilər. Bu şəkildə imtina edilmiş hər hansı müraciət heç bir qanuni və ya hüquqi qüvvə daşımır.

(4) Baş Prokurorinin nümayəndəsi ən azından təcrübəli olmalı, bundan başqa belə müddəalara aidiyyəti olan məsələlər üzrə ixtisaslaşmış məsləhətçilər vasitəsilə potensial ixracatçı olmamalı və kiçik bizneslə məşğul olmamalıdır, habelə bu bölmənin əvvəlki müddəaları ilə əlaqədar Baş Prokurorin yinin hazırda qüvvədə olan hüquq-mühafizə siyasəti ilə bağlı vaxtaşırı təlimatla təmin etməlidir. Bu təlimat bu bölmənin əvvəlki müddəalarına müvafiq olaraq uyğunluq öhdəliklərinin əsas izahları və potensial vəzifələri, habelə bu bölmənin əvvəlki müddəaları ilə əlaqədar Baş Prokuror iyinin qüvvədə olan hüquq-mühafizə siyasəti ilə idarə olunan gələcəkdə nəzərdə tutulmuş xüsusi uyğunluqla əlaqədar 1-ci paraqrafa əsasən irəli sürülmüş müraciətlər əsasında məhdudlaşdırılır.

(g) Cərimələr

(1) (A) Fiziki şəxs hesab olunmayan və bu bölmənin (a) və ya (i) yarım bölmələrini pozan hər hansı yerli sakinə $ 2,000,000-dən artıq olmayan məbləğdə cərimə təyin olunur.

(B) Fiziki şəxs hesab olunmayan və bu bölmənin (a) və ya (i) yarım bölmələrini pozan hər hansı yerli sakindən Baş Prokurorinin nümayəndəsi tərəfindən irəli sürülən hər hansı məsələ ilə əlaqədar $ 10,000-dan artıq olmayan məbləğdə təyin olunan mülki cərimə tutulur.

(2) (A) Yerli sakinin hər hansı məmuru, direktor, işçi və ya agent və ya belə yerli sakinin adından çıxış edən səhmdar olan və bu bölmənin (a) və ya (i) yarımbölmələrini könüllü şəkildə pozan hər hansı fiziki şəxs $ 100,000-dən artıq olmayan məbləğdə cərimə olunur və ya ona 5 ildən artıq olmayan müddətdə həbs təyin olunur və ya qeyd olunan prosedurların hər ikisi təyin olunur.

(B) Yerli sakinin hər hansı məmuru, direktor, işçi və ya agenti və ya belə yerli sakinin adından çıxış edən səhmdar olan və bu bölmənin (a) və ya (i) yarımbölmələrini pozan hər hansı fiziki şəxsə Baş Prokurorinin nümayəndəsi tərəfindən irəli sürülmüş hər hansı fəaliyyətlə əlaqədar $ 10,000-dən artıq olmayan məbləğdə mülki cərimə təyin olunur.

(3) Əgər cərimə paraqraf 2-də göstərilmiş və yerli sakinin hər hansı məmuru, direktor, işçi, agent və ya səhmdarı ilə əlaqədar tətbiq olunarsa bu zaman həmin cərimə həmin yerli sakin tərəfindən birbaşa və ya dolayısı yolla ödənilmir.

(h) İzahlar

Bu bölməyə əsasən:

(1) Yerli sakin termini deməkdir –

(A) Birləşmiş Ştatların vətəndaşı, millisi və ya daimi yaşayan sakini olan hər hansı fərd

(B) Biznesinin əsas idarəsi Birləşmiş Ştatlarda yerləşən və ya Birləşmiş Ştatların ərazisi, sahibkarlığı və ya hökuməti daxilində Birləşmiş Ştatların ştat qanunları ilə təşkil olunmuş hər hansı korporasiya, birgə müəssisə, assosiasiya, səhmdar cəmiyyət, biznes trest, hüquqi şəxsi olmayan təşkilat və ya fərdi özəl müəssisə

(2) (A) "Xarici məmur" termini deməkdir – adı çəkilən hökumət və ya nazirliyin, agentlik və ya dövlət müəssisəsi və ya bu kimi hər hansı (dövlətlərarası) beynəlxalq təşkilat adından məsul məmur qismində və ya xarici hökumətin, hər hansı nazirliyin, agentlik və ya dövlət müəssisəsinin, habelə (dövlətlərarası) beynəlxalq təşkilatın hər hansı şəxsi qismində çıxış edən hər hansı məmur və ya işçi

(B) (A) yarımbölməsi ilə əlaqədar (dövlətlərarası) beynəlxalq təşkilat termini deməkdir-

(i)Beynəlxalq Təşkilatların Toxunulmazlıq Aktının (22 U.S.C. § 288) 1-ci bölməsinə müvafiq olaraq Prezident fərmanı ilə təsis olunmuş təşkilat

(ii)Bu bölməyə əsasən Prezidentin fərmanı ilə təsis olunmuş və həmin fərmanın Federativ reyestrdə dərc olunduğu tarixdən etibarən qüvvəyə minən hər hansı digər beynəlxalq təşkilat

(3) (A) Sənədsiz fəaliyyət göstərən şəxs dedikdə həmin şəxsin idarəetmə bacarığının olması deməkdir və ya şərait və ya nəticənin mövcud olmasından xəbər verir və ya

(i)Həmin şəxsin digər şəxsin idarəetmə ilə məşğul olmasından və ya həmin şəraitin meydana çıxmasından xəbərdar olduğunu xəbər verir və ya belə bir nəticənin baş verməsini xüsusilə müəyyən etmişdir və ya

(ii)Həmin şəxs əminliklə inanır ki, belə şərait mövcuddur və ya həmin nəticənin yaranmasını əminliklə müəyyənləşdirmişdir.

(B) hüquq pozuntusu ilə əlaqədar xüsusi halın olduğu ilə bağlı məlumat tələb edilərsə, bu bilgi, məlumat o halda formalaşır ki, şəxs bu kimi halın yaranması imkanı olduğundan xəbərdar olsun (əgər həmin şəxsin bu kimi halın həqiqətən də inanırsa).

(4) (A) "Kompleks dövlət fəaliyyəti" ifadəsi əcnəbi rəsmi tərəfindən aşağıda qeyd edilənlər üzrə ümumi şəkildə icra edilən fəaliyyəti ifadə edir--

(i) şəxsin xaricdə iş aparmasına yol verən icazələrin, lisenziyaların, və ya digər rəsmi sənədlərin alınması;

(ii) hökumət sənədlərinin işlənməsi, belə ki, vizaların və iş sifarişlərinin;

(iii) korrespondensiyanın alınması və çatdırılması və təchizatın təmin edilməsi və ya kontraktın icrası və ya ölkə boyunca malların tranziti ilə əlaqədar yoxlamaların planlaşdırılması ilə bağlı polis mühafizəsinin təmin edilməsi;

(iv) telefon xidmətlərinin təmin edilməsi, elektrik və su təchizatının, yüklərin yüklənib boşaldılması, və ya tez xarab olan məhsul və malların korlanmadan qorunması; və ya

(v) bu qeyd edilənlərə oxşar digər fəaliyyət.

(B) "Kompleks şəkildə dövlət fəaliyyəti" ifadəsi xarici rəsmi tərəfin xüsusi bir tərəfə yeni işlərin təyin edilməsi və ya həmin tərəflə işlərin davam etdirilməsinə dair verilən hər hansı bir qərarı, və ya xüsusi bir tərəfə yeni işlərin təyin edilməsi və ya həmin tərəflə işlərin davam etdirilməsinə dair qərarın dəstəklənməsi məqsədilə qərar qəbul edilməsi prosesinə cəlb edilmiş əcnəbi rəsmi tərəfindən görülən tədbirləri tərkibinə daxil etmir.

(5) "Dövlətlərarası kommersiya, ticarət" ifadəsi bir sıra dövlətlər, və ya istənilən xarici ölkə və ya istənilən bir xarici dövlət arasında ticarət, kommersiya, daşınma, və ya kommunikasiya mənasını ifadə edir və bu ifadə aşağıda qeyd edilənlərin dövlətlərarası istifadəsi mənasını da tərkibinə daxil edir:

(A) telefon və ya dövlətlərarası kommunikasiyanın digər vasitələri, və ya

(B) hər hansı digər dövlətlərarası dəstək.

(i) Alternativ Yurisdiksiya

(1) Hər hansı bir Birləşmiş Ştatlardan olan şəxs üçün Birləşmiş Ştatlardan kənarda qanundan kənar təklifin dəstəklənməsi, ödəniş, ödəniş edilməsi vədi vermək, və ya hər hansı pul məbləğinin ödənişi səlahiyyəti, təklif etmək, bağışlamaq, verəcəyinə dair vəd vermək, və ya (a) yarımbəndinin (1), (2), və (3) saylı paraqraflarında göstərilən şəxs və ya müəssisələrə hər hansı dəyərli əşyaların burada qeyd edilən məqsədlərlə verilməsi səlahiyyəti həmin Birləşmiş Ştatlar vətəndaşı bu təklifin, bağışlanmanın, ödənişin, vədin, və ya səlahiyyətin reallaşdırılması üzrə dövlətlərarası kommersiyaya dəstək vasitələri və ya məlumatlardan istifadə edib etməməsindən asılı olmayaraq qeyri qanuni hesab edilir.
(2) Hazırkı yarımbölmədə göstərildiyi kimi, "Birləşmiş Ştatlardan olan şəxs" dedikdə Birləşmiş Ştatlar vətəndaşı (İmmiqrasiya və Vətəndaşlıq haqqında qanunun (8 U.S.C. § 1101) 101-ci bölməsində göstərildiyi kimi) və ya Birləşmiş Ştatların və ya hər hansı bir dövlətin qanunlarına müvafiq olaraq təsis edilmiş hər hansı korporasiya, partnyor, assosiasiya, birgə səhmdar cəmiyyət, biznes trest, korporativ olmayan təşkilat, və ya fərdi özəl müəssisə, ərazi, mülk, və ya Birləşmiş Ştatlar və ya hər hansı bir siyasi bölmə nəzərdə tutulur.

§ 78dd-3. Emitent və ya yerli müəssisələrdən başqa digər şəxslərə həyata keçirilməsi qadağan edilmiş xarici ticarət praktikası

(a) Qadağa

Qiymətli kağızların Mübadiləsinə dair 1934-cü il tarixli qanunun 30A bölməsinə müvafiq olaraq emitentdən əlavə hər hansı bir Birləşmiş Ştatlar vətəndaşı və ya hazırkı qanunun 104 saylı bölməsində göstərildiyi kimi yerli müəssisə və ya vəzifəli şəxsi, direktoru, işçisi, agenti və ya həmin emitentin adından hərəkət edən onun hər hansı bir səhmdarının, istənilən təklif, ödəniş, ödəniş həyata keçirmək vədi, hər hansı bir pul məbləğinin ödənişinin həyata keçirilməsinə razılıq vermə, eləcə də təklif, bağışlama, vermək vədi və ya hər hansı bir qiymətli şeyin verilməsinə icazə vermək üçün dövlətlərarası ticarətə aid olan məktublar, hər hansı üsullar və ya vasitələrdən qanundan kənar istifadə etməsi qeyri-qanunidir:

(1) istənilən xarici vəzifəli şəxsə --

(A) (i) bu cür xarici vəzifəli şəxsin, onun rəsmi səlahiyyətləri daxilində, hər hansı bir fərman və ya qərarına təsir etmək, (ii) bu cür xarici vəzifəli şəxsi, onun qanunla müəyyən edilmiş öhdəçiliyinin pozulmasına gətirib çıxaran hər hansı bir hərəkətin həyata keçirilməsi və ya etina edilməsinə vadar etmək və ya (iii) hər hansı düzgün olmayan mənfəətin təmin edilməsi; və ya

(B) bu cür xarici vəzifəli şəxsi, onun xarici dövlətlə və ya həmin dövlətin köməyi vasitəsilə, həmin xarici dövlətin və ya dəstəyinin hər hansı bir fərman və ya qərarına və ya onların əleyhinə öz mükəlləfiyyətlərindən istifadə etməyə vadar etmək;

Bu şəxsə və ya onun adından fəaliyyət göstərən səhmdar ilə istənilən işi həyata keçirmək və ya saxlamaq və ya hər hansı bir şəxsə yönləndirməyə kömək etmək məqsədilə aşağıdakı məqsədlər üçün

(2) hər hansı bir xarici siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsinə--

(A) (i) bu cür xarici siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsinin, onun rəsmi səlahiyyətləri daxilində, hər hansı bir fərman və ya qərarına təsir etmək, (ii) bu cür xarici siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsini, onun qanunla müəyyən edilmiş öhdəçiliyinin pozulmasına gətirib çıxaran hər hansı bir hərəkətin həyata keçirilməsi və ya etina edilməsinə vadar etmək və ya (iii) hər hansı düzgün olmayan mənfəətin təmin edilməsi; və ya

(B) bu cür xarici siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsi, onun xarici dövlətlə və ya həmin dövlətin köməyi vasitəsilə, həmin xarici dövlətin və ya dəstəyinin hər hansı bir fərman və ya qərarına və ya onların əleyhinə öz mükəlləfiyyətlərindən istifadə etməyə vadar etmək;

bu şəxsə və ya onun adından fəaliyyət göstərən səhmdar istənilən işi həyata keçirmək və ya saxlamaq və ya hər hansı bir şəxsə yönləndirməyə kömək etmək məqsədilə aşağıdakı məqsədlərin həyata keçirilməsi üçün

(3) hər hansı bir şəxsə, bu cür pul məbləği və ya qiymətli şeyin bütünlüklə və ya bir hissəsinin hər hansı bir xarici vəzifəli şəxsə, xarici siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsinə birbaşa və ya hər hansı vasitə ilə təklif edildiyini, verildiyini və ya vəd edildiyini bilərək, aşağıdakı məqsədlərlə ---

(A) (i) bu cür xarici vəzifəli şəxs, siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsinin, onun rəsmi səlahiyyətləri daxilində, hər hansı bir fərman və ya qərarına təsir etmək, (ii) bu cür xarici vəzifəli şəxs, siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsini, onun qanunla müəyyən edilmiş öhdəçiliyinin pozulmasına gətirib çıxaran hər hansı bir hərəkətin həyata keçirilməsi və ya etina edilməsinə vadar etmək və ya (iii) hər hansı düzgün olmayan mənfəətin təmin edilməsi; və ya

(B) bu cür xarici vəzifəli şəxs, siyasi partiya və ya onun vəzifəli şəxsi və ya xarici siyasi idarənin ixtiyari nümayəndəsi, onun xarici dövlətlə və ya həmin dövlətin köməyi vasitəsilə, həmin xarici dövlətin və ya dəstəyinin hər hansı bir fərman və ya qərarına və ya onların əleyhinə öz mükəlləfiyyətlərindən istifadə etməyə vadar etmək.

bu şəxsə və ya onun adından fəaliyyət göstərən səhmdar ilə istənilən işi həyata keçirmək və ya saxlamaq və ya hər hansı bir şəxsə yönləndirməyə kömək etmək məqsədilə aşağıdakı məqsədlərin

həyata keçirilməsi üçün

(b) Adi dövlət fəaliyyətinə istisna

Bu bölmənin (a) və (g) yarımfəsilləri məqsədi xarici vəzifəli şəxs, siyasi partiya və ya onun vəzifəli şəxsi tərəfindən adi dövlət fəaliyyətinin həyata keçirilməsinin tezləşdirilməsi və ya təmin edilməsi olan, xarici vəzifəli şəxs, siyasi partiya və ya onun vəzifəli şəxsinə ediləcək heç bir yüngülləşdirilən və ya tezləşdirilən ödənişə tətbiq edilmir.

(c) İddianı və ya təqsiri rədd edən faktlar haqqında bildiriş

Aşağıda qeyd edilən hərəkətlər (a) yarımbəndinə əsasən müdafiə məqsədli arqumentləri təşkil edəcək--

(1) əcnəbi məmurun, siyasi partiyanın, partiya rəsmisinin, və ya namizədin ölkəsinin yazılı qanunları və qaydalarına əsasən qanuni hesab edilən ödənişlər, qiymətli əşyanın bağışlanması, qeyd edilənlərlə bağlı təklif, və ya qeyd edilənlərlə bağlı vəd verilməsi ; və ya

(2) edilən ödəniş, bağışlama, və ya hər hansı bir qiymətli əşyanın verilməsi ilə bağlı vəd, səfər və yaşayış xərcləri, xarici rəsmi, partiya və ya partiya rəsmisi, namizədin aşağıda qeyd edilənlərlə bağlı üzləşdiyi müvafiq və real xərclərdir--

(A) məhsul və xidmətlərin reklamı, nümayiş etdirilməsi və ya şərhi; və ya

(B) xarici hökumət və ya idarə ilə kontrakt bağlanması.

(d) Məhkəmə zamanı hüquqların qorunması vasitəsi

(1) Baş Prokurora hər hansı bir şəxsin, hansı ki, hazırkı bölmə tətbiq edilir, və ya vəzifəli şəxs, direktor, əməkdaş, nümayəndə və ya səhmdar hazırkı bölmənin (a) yarımbölməsinin tələblərini pozacaq hər hansı bir iş gördüyü məlum olarsa bu halda baş Prokuror mülki işi Birləşmiş Ştatların rayon məhkəməsinə təqdim edə bilər o məqsədlə ki, həmin məhkəmə bu işlə bağlı əmr versin və lazımı məlumatlar almaqla öhdəliksiz əsasda daimi məhkəmə qərarı və ya müvəqqəti məhkəmə qadağası verilə bilər.

(2) Hər hansı mülki istintaq məqsədilə Baş Prokurorun fikrincə hazırkı bölmənin təmin edilməsi lazım olduqda və ya uyöun olduqda baş prokuror və ya onun təyin etdiyi şəxsə andiçmə və ya təsdiq etmə, şahidlərin məhkəməyə çağırılması, Şahidlərin iştirakı və sənəd şəklində olan dəlillərin hazırlanması Birləşmiş Ştatların istənilən bir yerindən, və ya istənilən bir ərazidən sübutların götürülməsi, və istənilən kitabların, rəsmi kağız və digər sənədlərin (hansı ki, Baş Prokuror tərəfindən bu istintaq ilə bağlı uyğun hesab edilir) məhkəmə işinin dinlənilməsi üçün təyin edilən yerdə hazırlanması tələblərinin idarə edilməsi səlahiyyəti verilir.

(3) Məhkəmə qərarına riayət edilməməsi halında və ya məhkəmə bildirişindən imtina edilməsi halında Baş Prokuror bu istintaqın aparıldığı yer və ya həmin şəxsin yaşadığı və ya işlədiyi yerin yurisdiksiyası çərçivəsində Birləşmiş Ştatların hər hansı bir məhkəməsinin şahidlərin iştirakını və

şahidlik etmələri, kitabların, rəsmi kağızların və digər sənədlərin hazırlanması işlərində yardımını istəyə bilər. Bu kimi hər hansı bir məhkəmə baş Prokuror və ya göstəriş oluğu halda qeydiyyat işləri üzrə onun təyin etdiyi vəzifəli şəxs qarşısında bu şəxsin iştirakını və ya araşdırılan məsələyə dair ifadə verməsini tələb edən göstəriş verə bilər. Məhkəmənin bu əmrinin yerinə yetirilməməsi halı hörmətsizlik hesab edilərək cəza tətbiq edilə bilər.

(4) Bu işlə əlaqədar bütün proseslər həmin şəxsin yaşadığı məhkəmə dairəsində həyata keçirilə bilər. Baş Prokuror hazırkı yarımbölmənin müəddəalarının həyata keçirilməsi üçün uyğun və ya lazım hesab edilən mülki araşdırmalarla bağlı qaydalar təyin edə bilər.

(e) Cərimələr

(1) (A) hazırkı bölmənin (a) saylı yarımbölməsinin tələblərini pozan hər hansı bir hüquqi şəxs $2,000,000 məbləğndən çox olmayan məbləğdə cərimə ediləcək.

(B) Hazırkı bölmənin (a) saylı yarımbölməsinin tələblərini pozan hərhansı bir hüquqi şəxs Baş Prokuror tərəfindən məhkəməyə verilərək $10,000 məbləğdən az olmayan məbləğdə cərimə ediləcək.

(2) (A) hazırkı bölmənin (a) yarımbölməsinin tələblərini pozan hər hansı bir fiziki şəxs $100,000 məbləğdən çox olmayan məbləğlə cərimə ediləcək və ya həmin şəxs 5 il müddətinə azadlıqdan məhrum edilmə cəzası ilə cəzalandırılacaq, və ya həmin şəxs barəsində bu qeyd edilən cəzaların hər ikisi tətbiq ediləcək.

(B) Hazırkı bölmənin (a) saylı yarımbölməsinin tələblərini pozan hərhansı bir fiziki şəxs Baş Prokuror tərəfindən məhkəməyə verilərək $10,000 məbləğdən az olmayan məbləğdə cərimə ediləcək.

(3) Nə vaxtsa hər hansı bir məmur, director, əməkdaş, nümayəndə və ya müəssisə səhmdarına (2) saylı paraqrafına müvafiq olaraq cərimə təyin edilərsə, bu cərimə birbaşa və ya dolayısı ilə həmin şəxs tərəfindən ödənilməyə bilər.

(f) Təriflər

Hazırkı bölmənin məqsədlərindən çıxış edərək:

(1) Hüquq pozuntusuna yol verən şəxsə istinad edən "Şəxs" anlayışı Birləşmiş Ştatların vətəndaşılarından əlavə hər hansı fiziki şəxs və ya xarici dövlət və ya siyasi bölmə qanunlarına müvafiq olaraq yaradılan hər hansı bir korporasiya, partnyorluq, assosiasiya, birgə səhmdar cəmiyyət, bisnes trest, qeyri korporativ təşkilat, və ya fərdi özəl müəssisə mənasını ifadə edir (8 U.S.C. § 1101 göstərildiyi kimi)

(2) (A) "Əcnəbi rəsmi" ifadəsi xarici təşkilatın və ya idarənin, agentliyin, və ya vasitəçi agentliyin hər hansı bir rəsmisi və ya əməkdaşı, və ya həmin hökumət və ya idarə, agentlik, vasitəçi orqan və ya bu kimi hər hansı bir ictimai beynəlxalq təşkilat adında

çıxış edən hər hansı digər bir şəxs mənasını ifadə edir.

(A) paraqrafının məqsədlərindən çıxış etsək, “dövlət beynəlxalq təşkilatı” ifadəsi aşağıda qeyd edilən mənaları ifadə edir--

(i) Beynəlxalq Təşkilatların Toxunuzlmazlığı haqqında Qanunun (22 U.S.C. § 288) 1-ci Bölməsinə müvafiq olaraq president fərmanı ilə təyin edilən təşkilat ; və ya

(ii) Hazırkı bölmədə göstərilən məqsədlər üçün əmrin Federal reyestrə daxil edilməsi tarixindən qüvvəyə minən inzibati fərman ilə president tərəfindən təyin edilən digər hər hansı bir beynəlxalq təşkilat.

(3) (A) Şəxsin işin aparılması, vəziyyəti və ya nəticələrilndən xəbərdar olduğu aşağıdakı hallarda deyilə bilər:

(i) Əgər həmin şəxsə məlum olarsa ki, həmin şəxs bu işdə iştirak edib, belə bir vəziyyət mövcuddur, və ya belə bir nəticənin ortaya çıxması realdır; və ya

(ii) Həmin şəxs qəti olaraq inanır ki, belə bir vəziyyət mövcuddur və ya bu kimi nəticələrin alınması şübhəsizdir.

(B) hüquq pozuntusu ilə əlaqədar xüsusi halın olduğu ilə bağlı məlumat tələb edilərsə, bu bilgi, məlumat o halda formalaşır ki, şəxs bu kimi halın yaranması imkanı olduğundan xəbərdar olsun (əgər həmin şəxsin bu kimi halın həqiqətən də inanırsa).

(4) (A) “Kompleks dövlət fəaliyyəti” ifadəsi əcnəbi rəsmi tərəfindən aşağıda qeyd edilənlər üzrə ümumi şəkildə icra edilən fəaliyyəti ifadə edir: -

(i) şəxsin xaricdə iş aparmasına yol verən icazələrin, lisenziyaların, və ya digər rəsmi sənədlərin alınması;

(ii) hökumət sənədlərinin işlənməsi, belə ki, vizaların və iş sifarişlərinin;

(iii) korrespondensiyanın alınması və çatdırılması və təchizatın təmin edilməsi və ya kontraktın icrası və ya ölkə boyunca malların tranziti ilə əlaqədar yoxlamaların planlaşdırılması ilə bağlı polis mühafizəsinin təmin edilməsi;

(iv) telefon xidmətlərinin təmin edilməsi, elektrik və su təchizatının, yüklərin yüklənib boşaldılması, və ya tez xarab olan məhsul və malların korlanmadan qorunması; və ya

(v) bu qeyd edilənlərə oxşar digər fəaliyyət.

(B) “Kompleks şəkildə dövlət fəaliyyəti” ifadəsi xarici rəsmi tərəfin xüsusi bir tərəfə yeni işlərin təyin edilməsi və ya həmin tərəflə işlərin davam etdirilməsinə dair verilən hər hansı bir qərarı, və ya xüsusi bir tərəfə yeni işlərin təyin edilməsi və ya həmin tərəflə işlərin davam etdirilməsinə dair qərarın dəstəklənməsi məqsədilə qərar qəbul edilməsi prosesinə cəlb edilmiş əcnəbi rəsmi tərəfindən görülən tədbirləri tərkibinə daxil etmir.

(5) “Dövlətlərarası kommersiya, ticarət” ifadəsi bir sıra dövlətlər, və ya istənilən xarici ölkə və ya istənilən bir xarici dövlət arasında ticarət, kommersiya, daşınma, və ya kommunikasiya mənasını ifadə edir və bu ifadə aşağıda qeyd edilənlərin dövlətlərarası istifadəsi mənasını da tərkibinə daxil edir --

(A) telefon və ya dövlətlərarası kommunikasiyanın digər vasitələri, və ya

(B) hər hansı digər dövlətlərarası dəstək.

§ 78ff. Cərimələr

(a) Bilərəkdən edilən pozuntu halları; saxta və yalan hesabatlar

Hazırkı fəsilin (hazırkı qanunun 78dd-1 bölməsi istisna olmaqla) tələblərini və ya hər hansı qayda və qanunları bilərəkdən pozan hər hansı bir şəxs, hansı ki, bu pozuntu halı qeyri qanuni hesab edilir və ya onlara əməl edilməsi hazırkı fəsil əsasında tələb edilir, və ya hazırkı fəsilə, qanun və qaydalara müvafiq olaraq ərizədə, hesabatda və ya sənəddə reyestrə daxil edilməsi tələb edilən yalnış məlumat qeyd edən şəxs və ya hazırkı qanunun 78*o* bölməsinin (d) yarımbəndində göstərildiyi kimi öhdəlik qəbul edirsə həmin şəxs məhkum olunaraq $5,000,000 məbləğdə cərimə ediləcək və ya 20 ildən artıq həbs cəzası veriləcək və ya bu qeyd edilən cəzalardan hər ikisi barəsində tətbiq ediləcək, həmin şəxs fiziki şəxs deyilsə bu halda $25,000,000 məbləğindən çox olmayan məbləğdə cərimə tutula bilər; hazırkı bölməyə müvafiq olaraq hər hansı qanun və qaydaların pozuntusuna görə heç bir şəxs sübut edərsə ki, bu qayda və qanunlar haqqında heç bir məlumata malik deyil, bu halda həmin şəxs azadlıqdan məhrum edilmə cəzası ilə cəzalandırılmayacaq.

(b) Məlumat, sənədlər və ya hesabatların reyestrə daxil edilməməsi

Hazırkı qanununun 78*o* bölməsinin (d) yarımbölməsi, və ya hər hansı qaydalara müvafiq olaraq reyetsrə daxil edilməsi olan məlumat, sənədlər və ya hesabatlar hər hansı bir emitent tərəfindən həyata keçirilməzsə həmin emitent Birləşmiş Ştatlara $100 məbləğində məlumat, sənədlər və ya hesabatların reyestrə daxil edilməməsi davam edən hər gün üçün cərimə ödəyəcək. Bu növ cərimə, hazırkı bölmənin (a) saylı yarımbölməsinə müvafiq olaraq yaranması hesab edilən, reyetsrə axil etməmə halı ilə əlaqədar hər hansı bir cinayət sanksiyası əvəzinə Birləşmiş Ştatların Xəzinəsinə ödənilməlidir və Birləşmiş Ştatların adından mülki prosesdə geri alına bilməz.

(c) Səhm buraxan təşkilatın çek verən şəxsləri, məmurları, direktorları, səhmdarları, əməkdaşları və ya emitentin nümayəndələri tərəfindən yol verilən pozuntu halları

(1) (A) Hazırkı qanunun [15 U.S.C. § 78dd-1] 30A bölməsinin (a) və ya (g) yarımbölmələrinin tələblərini pozan hər hansı bir emitent $2,000,000 məbləğdən az olmayan məbləğlə cərimələnəcək.

(B) Hazırkı qanunun [15 U.S.C. § 78dd-1] 30A bölməsinin (a) və ya (g) yarımbölmələrinin

tələblərini pozan hər hansı bir emitent komissiya tərəfindən məhkəməyə verilməklə $10,000 məbləğindən çox olmayan məbləğdə mülki cərimə ediləcək.

(2) (A) hazırkı qanunun [15 U.S.C. § 78dd-1] 30A bölməsinin (a) və ya (g) yarımbölmələrinin tələblərini bilərəkdən pozan emitentin hər hansı bir məmuru direktoru əməkdaş və ya nümayəndə və ya həmin emitentin adından çıxış edən səhmdar $100,000 məbləğdən çox olmayan məbləğdə cərimə ediləcək və ya 5 ildən çox olmayan bir müddətə həbs ediləcək və ya bu iki cəza hər ikisi birlikdə tətbiq ediləcək.

(B) Həmin emitentin hazırkı qanunun [15 U.S.C. § 78dd-1] 30A bölməsinin (a) və ya (g) yarımbölmələrinin tələblərini pozan hər hansı bir məmuru direktoru əməkdaş və ya nümayəndəsi və ya həmin emitentin adından çıxış edən səhmdara Komissiya tərəfindən məhkəməyə verilərək $10,000 məbləğdən çox olmayan məbləğlə mülki cərimə təyin ediləcək.

(3) Nə vaxtsa hər hansı bir məmur, director, əməkdaş, nümayəndə və ya səhm buraxan təşkilatın səhmdarına (2) –ci paraqrafa əsasən cərimə təyin edilərsə, bu cərimə birbaşa və ya dolayısı ilə həmin təşkilat tərəfindən ödənilməyə bilər.